# LALƏ CAVANŞİR QIZI ƏBİLHƏSƏNOVA – 60



L.C.Əbilhəsənova 1961-ci il 14 sentyabrda Zəngilan rayonunun Tatar kəndində anadan olmuşdur. 1978-ci ildə Cahangirbəyli kənd orta məktəbini bitirdikdən sonra Məşədi Əzizbəyov adına Neft və Kimya institutunun (hazırki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin) Geoloji Kəşfiyyat Fakultəsinə daxil olmuş və 1984-cü ildə oranı dağ mühəndisi - geoloq ixtisası üzrə bitirmişdir.

Təhsil aldığı dövrdə (1979-1981-ci illərdə) Radio zavodda çalışmış və 1981-ci ildən "Xəzərdənizneftgeofizikikəşfiyyat" trestində texnik-geoloq kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar mühəndis-geoloq, geoloq, aparıcı-geoloq, tematik partiyanın rəisi vəzifələrində çalışmışdır.

2006-cı ildən 2014-cü ilə qədər Geofizika və Geologiya İdarəsinin (GGİ) Kəşfiyyatgeofizika İdarəsində geoloji şöbənin rəisi vəzifəsində işləmiş, 2014-cü ildən 2016-cı ilə qədər GGİ-nin Kəşfiyyatgeofizika İstehsalat bölümünün (KGİB) Geofiziki Məlumatların Emalı və İnterpretasiyası Ekspedisiyasında "Geofiziki və geoloji materialların ümumiləşdirilməsi partiyası"nın rəisi vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir.

L.Əbilhəsənova Geofizika və Geologiya İdarəsinin illik və perspektiv planlarının hazırlanmasında və aparılacaq geofiziki kəşfiyyat işlərinin əsaslandırılmasında yaxından iştirak etmişdir. Onun iştirakı ilə Kəşfiyyatgeofizika İB-nin yaxın illərdə Azərbaycanın quru və dəniz sahələrində "Azneft" İB-nin sifarişi əsasında yerinə yetirəcəyi geofiziki kəşfiyyat işləri haqqında geoloji-geofiziki materiallar hazırlanmış və təkliflər təqdim edilmişdir.

Onun rəhbərliyi və iştirakı ilə geofiziki kəşfiyyat işləri nəticəsində aşkar olunmuş strukturlar (öyrənilmə dərəcəsi, perspektivliyi və gələcəkdə geofiziki kəşfiyyat işlərinin aparılması təklif olunan sahələr) haqqında məlumatlar toplanaraq sistemləşdirilmiş və böyük həcmli geoloji-geofiziki məlumatlar bazası yaradılmış və bu işlər hazırda da davam etdirilir.

GGİ-nin Kəşfiyyatgeofizika İstehsalat Bölümündə geofiziki-kəşfiyyat işlərinin aparılmasının əsaslandırılması, layihələndirilməsi, alınmış məlumatların interpretasiyası və dəyərləndirilməsi, struktur xəritələrin tərtibi, yekun hesabatların hazırlanması, neftli-qazlı rayonlar üzrə geoloji-geofiziki materialların ümumiləşdirilməsi mövzusu işlərinin yerinə yetirilməsi, həmçinin BP, Statoil, RWE və s. xarici şirkətlərlə Xəzər dəniz akvatoriyasının, Azərbaycanın quru ərazisinin müxtəlif sahələri üzrə müqavilə işlərinin vaxtında, müasir səviyyədə həll edilməsində yaxından iştirak etmişdir.

Qabaqcıl bir mütəxəssis kimi işlə əlaqədar Moskva, Alma-Ata və Oslo şəhərlərinə ezam edilmiş, dəfələrlə mükafatlandırılmışdır.

L.Əbilhəsənova, neft və qaz sənayesindəki xidmətləri nəzərə alınaraq 2015-ci ildə SOCAR

tərəfindən "2014-cü ilin ən yaxşı geoloqu" fəxri adı ilə təltif olunmuşdur.

2016-cı ildən hal-hazıra qədər Kəşfiyyatgeofizika İB-nin geologiya üzrə rəis müavini vəzifəsində çalışan Lalə xanımın rəhbərliyi ilə 11 hesabat işlənilmiş, müdafiə olunmuş və sifarişçi təşkilatlara təhvil verilmişdir. Bundan əlavə o, bir sıra hesabatların müəllifi və həmmüəllifi olmuşdur. Onlarla elmi məqalənin müəllifi və həmmüəllifi olmaqla, bir neçə geofiziki konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

Lalə xanım öz zəngin bilik və bacarığını və istehsalat təcürbəsini gənclərdən əsirgəməmiş, onların mütəxəssis kimi yetişməsində böyük rolu olmuşdur.

***Geofizika və geologiya İdarəsinin rəhbərliyi və əmək kollektivi, eləcə də "Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti Lalə xanımı – Azərbaycanın tanınmış neftçi geoloqunu, təcrübəli və zəhmətkeş mütəxəssisi, ən əsası isə xeyirxah insanı əlamətdar yubileyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır!***